*15.10.2024-cü il tarixinə qədər olan məlumata əsasən*

***Kanada***

## Miqrasiya sahəsində qanunvericilik bazası

Kanadada əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyətinin ümumi prinsipləri, onların hüquq və vəzifələri əsasən

- ✓ 2002-ci ilin iyun ayının 28-də qüvvəyə minmiş “İmmiqrasiya və qaçqınların müdafiəsi haqqında” Qanun;
- ✓ “İmmiqrasiya və qaçqınların müdafiəsi haqqında” Nizamnamə;
- ✓ 1985-ci ildə qəbul edilmiş “Vətəndaşlıq haqqında” Qanun, beynəlxalq sazişlər və digər normativ hüquqi aktlarla tənzimlənir. (Daha ətraflı)

## Miqrasiya proseslərinin tənzimlənməsində iştirak edən dövlət orqanları

Son illər Kanada tərəfindən ildə təxminən 90 000 miqrantın qəbul edilməsi üçün müxtəlif proqramlar tətbiq olunur. Miqrasiya ilə bağlı qanunvericiliyin hazırlanmasına və miqrant qəbul edilmə proqramlarının həyata keçirilməsinə birbaşa Kanada Federal hököməti nəzarət edir. Lakin bölgə və əyalətlər də sərbəst şəkildə miqrant qəbuletmə proqramlarını həyata keçirmək səlahiyyətinə malikdirlər. Kanadanın miqrasiya sistemi iki əsas qrup üzrə formalaşdırılmışdır: qaçqınlar və könüllü miqrantlar. (Daha ətraflı)

Kanadada miqrasiya axınlarına İmmiqrasiya və vətəndaşlıq Nazirliyi (***IRCC****- fr. Immigration, Refugiés et Citoyenneté Canada, ing. Immigration, Refugees and Citizenship Canada)*, ona tabe olan İmmiqrasiya və qaçqın statusu Komissiyası *(fr. Commission de l'immigration et du statut de réfugié du Canada* ***(CISR)****, ing. Immigration and Refugee Board of Canada* **(IRB)***)* və Kanada sərhəd xidmətləri nəzarət edir.

## Ölkəyə daxil olma qaydaları

Əcnəbilər ölkəyə viza ilə daxil olduqda Kanadanın Sərhəd Xidmətlərinin əməkdaşları pasporta möhür vurur və şəxs ölkəyə daxil olduğu andan etibarən ona icazə verilən qalma müddəti bitmədən ölkəni tərk etməli olduğu barədə məlumatlandırılır. Əcnəbinin Kanada ərazisində 6 aydan daha artıq müddətə qalmasına ehtiyac yaranarsa o bunun üçün vizanın bitməsinə ən azı 30 gün qalmış Kanada Sərhəd Xidmətləri Agentliyinə və ya İmmiqrasiya və vətəndaşlıq Nazirliyinə müraciət edə bilər. Ölkədə olma müddətinin uzadılmasına icazə verilən şəxsə ziyarətçi qeydiyyat blankı (*fr. fiche de visiteur, ing. visitor record*) təqdim olunur. Ziyarətçinin qeydiyyat blankı viza deyildir və Kanadaya səfər edən, viza müddətindən daha çox müddətə qalmaq niyyətində olan əcnəbiyə ziyarətçi statusu verən sənəddir. (Daha ətraflı)

Kanadaya səfər etmə məqsədinə, girişlərin sayına, qalma müddətinə və s. görə fərqli viza növləri mövcuddur. Girişlərin sayına görə vizalar təkgirişli və çoxgirişli olur:

- ***Təkgirişli vizalar*** – Bu viza növü Kanada ərazisinə qısa müddətə rəsmi ziyarət, xüsusi tədbirdə iştirak və s. məqsədilə gələn əcnəbilərə ölkəyə bir dəfə daxil olmaq və qalmaq üçün verilir. Əcnəbi Kanada ərazisini tərk etdikdə artıq bu viza qüvvəsini itirmiş olur. Lakin şəxs bu viza ilə Kanadadan ABŞ-a məxsus torpaqlara və Müqəddəs Pyer və Mikelon (Saint Pierre et Miquelon - fransanın Kanada sahillərinə yaxın dənizaşırı departanmentlərindən biri) adasına gedərsə geri qayıtmaq üçün həmin viza etibarlı sayılır;
- ***Çoxgirişli vizalar*** - 10 ilə qədər etibarlılıq müddətinə malikdir və əcnəbiyə 6 aya qədər Kanada ərazisində qalmaq hüququ verir. (Daha ətraflı)

Əcnəbinin Kanada ərazisində qalma müddətinə görə isə vizalar aşağıdakı kateqoriyalara bölünür:

**Müvəqqəti yaşayış vizası** (və ya ziyarətçi vizası) - (fr. VRT- visa de résident temporaire və ya visa de visiteur, ing. temporary resident visa və ya visitor visa). Qeyd olunan viza əsasında əcnəbi maksimum 6 aya qədər müddətə ölkədə qala bilər (Daha ətraflı).

Əgər əcnəbi ölkədə viza müddətindən artıq qalmaq niyyətində olarsa bu zaman o sərhəd buraxılış məntəqələrində Kanada Sərhəd Ximətləri nümayəndəsinə bu barədə bildirir və həmin əcnəbinin pasportunda xüsusi qeyd aparılaraq ölkəni tərk edəcəyi sonuncu tarix yazılır və ya ona ziyarətçi qeydiyyat blankı (fr. fiche de visiteur, ing. visitor record) təqdim olunur. Ziyarətçinin qeydiyyat blankı viza deyildir və Kanadaya səfər edən, viza müddətindən daha çox müddətə qalmaq niyyətində olan əcnəbiyə ziyarətçi statusu verən sənəddir (Daha ətraflı);

- ***Daimi yaşayış vizası****- (fr.visa de résident permanent, ing. permanent resident visa)*- uzunmüddətli viza;
- ***Tranzit vizası****- (fr. visa de transit, ing. transit visa).*

### *Qısamüddətli vizalar*

Qısamüddətli vizalar aşağıdakı əsas kateqoriyalarda cəmlənir:

***Turist vizası*** - Kanadaya turist məqsədilə gələn şəxslərə verilir. Bu viza üçün son 10 ildə alınmış, Kanadadan geri qayıdış vaxtından sonra ən azı 6 ay etibarlı olan və ən azı 2 səhifəsi boş olan pasportla müraciət olunmalıdır. Əgər əcnəbi əvvəlki pasportu ilə Şengen, ABŞ və İngiltərə vizası almışsa onların surətini təqdim etməlidir. Sənədlər tam şəkildə hazırlandıqdan sonra Kanada Konsulluğunun rəsmi veb səhifəsindən viza rüsumu ödənməli, biometrik qeydiyyat üçün görüş vaxtı təyin olunmalı və təyin olunan vaxtda hazırlanan sənədlərlə müraciət olunmalıdır. Müraciət edən şəxsin sosial statusuna, hazırkı fəaliyyətinə və s. uyğun olaraq əsas sənədlərdən əlavə müvafiq sənədlər (xidməti vəsiqə, təqaüd kartı, tələbə bileti və s.) tələb oluna bilər.

***Təhsil vizası*** - Qısamüddətli təhsil vizası təhsil müddəti 6 ay və daha az olan əcnəbilərə verilir. Bu viza əsasında Kanadaya daxil olan şəxslər təhsil müddəti bitən kimi ölkəni tərk etməlidirlər. Təhsil sona çatdıqdan sonra vizanın müddəti bitməsə belə

viza etibarsız hesab edilir. Əcnəbilərin bu vizaya daha çox dil öyrənmə məqsədi ilə müraciət etməsi səbəbindən bu viza *“Dil təhsili vizası”* da adlanır.

***Ticarət vizası*** - Kanadaya 6 aydan az müddətə və ticarət məqsədilə gedən əcnəbilərə verilir. Bu vizanı almaq üçün əcnəbinin Kanadadan başqa bir ölkədə gəlir mənbəyi olmalı, onu dəvət edən tərəfin dəvət məktubu olmalı və Kanadada qalmaq və geri qayıtmaq üçün kifayət qədər maddi vəsaiti olduğunu sübut edən sənədləri olmalıdır.

***Ailə ziyarəti***– Ailə ziyarəti məqsədilə Kanadaya daxil olan şəxslərə verilir. Bu vizanın alınması üçün əsas şərt Kanada vətəndaşı olan və ya orada yaşama icazəsi olan ailə üzvünün dəvət məktubunun olmasıdır. *Ailə üzvü anlayışına* ər, arvad, 22 yaşına çatmamış və subay, 22 yaşına çatmış, lakin əqli və fiziki qüsurlu övladlar daxildir.

Qısamüddətli vizaların əsas kateqoriyalarla yanaşı xüsusi alt-kateqoriyalar üzrə verilən növləri də vardır: super vizalar, rəsmi və diplomatik vizalar, nəzakət vizası və asanlaşdırılmış viza.

***Uzunmüddətli vizalara aşağıdakılar daxildir:***

***Uzunmüddətli tələbə vizası -*** Kanadada 6 aydan çox müddətə təhsil alan əcnəbilərə verilir. Vizanın müddəti adətən ümumi təhsil müddətinə təyin olunur, lakin ehtiyac olduğu təqdirdə uzadılması mümkündür. Bu çoxgirişli viza əcnəbilərə Kanadada yaşamaq, yarımştatlı işləmək, səyahət etmək hüququ verir və universitetdə təhsil alan şəxslərə gələcəkdə Kanada vətəndaşı olmaq imkanı yaradır. Bu viza üçün əsas şərtlər Kanadadakı hər hansı bir təhsil müəssisəsinə qəbul olunmaq, hər hansı bir cinayətdə iştirak etməmək, təhsil müddətində xərcləri ödəyə bilmək üçün kifayət qədər maddi vəsaitə malik olmaqdır. Pasportun etibarlılıq müddəti müraciət edən şəxsin Kanadada nəzərdə tutduğu qalma müddətini əhatə etməlidir;

***Uzunmüddətli əmək vizası*** - Kanadada işçi qüvvəsinə ehtiyac olan sahələr üzrə mütəxəssislərə və ali təhsilli işçilərə verilən viza növüdür. Əmək vizası iki növ iş icazəsi əsasında alınır: qəbuledən tərəfə spesifik olan (işəgötürənə özəl) iş icazəsi və sərbəst iş icazəsi. Birinci kateqoriya iş icazəsi ( *fr.* permis de travail lié à un employeur donné, *ing* .employer–specific work permit) Kanadada işə qəbul edilmiş əcnəbilərə, eyni zamanda akademik heyətə, tədqiqat, sənaye və ticarət sahəsində quraşdırma və təmir işçiləri, din xadimləri, xeyirxahlıq layihələri həyata keçirənlər, peşəkar idmançılar, incəsənət ustaları, investisiya qoyanlar, sınaqçılara verilən vizadır. Sərbəst iş icazəsi (*fr.* permis de travail ouvert, *ing.* open work permit) isə Kanada tərəfindən ehtiyac olduğu təsdiqlənən sahələrin mütəxəssilərinə verilən vizadır;

**Daimi əmək vizası** – Xüsusi nailiyyət və istedadı olan əcnəbilər, gənc elmi işçilər, Kanada iqtisadiyyatına töhfələr verə biləcək əcnəbilər bu viza üçün müraciət edə və daimi olaraq Kanadada yaşaya bilərlər. Bu viza müraciətində diplomları Kanadada tanınan məktəb və ya universitet məzunlarına, kifayət qədər xarici dil biliyi, son 10 ildə ən azı 1 illik iş təcrübəsi, ticarət sahəsində təcrübəsi olanlara üstünlük verilir. Müraciətlər əsasən 100 bal üzərindən qiymətləndirilir və ən azı 67 balı olan əcnəbilərin müraciətinə müsbət rəy verilə bilər;

### *Tranzit vizası*

***Tranzit vizası*** - Kanada ərazisinə təyyarə ilə daxil olan və 48 saatdan az qalmaqla oranı tranzit məqsədilə istifadə edən əcnəbilərə verilir. Kanada torpaqlarında qalma müddəti 48 saatdan çox olan və ya ölkəyə qatar, gəmi və avtomobillə daxil olan şəxslər ziyarətçi vizası əldə etməlidir. Tranzit vizası rüsumsuzdur və alınma proseduru ziyarətçi vizası ilə eynidir. (Daha ətraflı)

Kanada ilə ikitərəfli razılaşma əsasında tranzit keçid üçün (xüsusilə ABŞ-a gedənlərə) bəzi ölkə vətəndaşlarının viza almasına ehtiyac yoxdur. Bir qrup ölkələrlə bağlanan müqavilələr əsasında həmin ölkələrin ziyarət məqsədli gələn vətəndaşlarına viza əvəzinə elektron səyahət icazəsi *(fr. Autorisation de voyage électronique (**AVE**), ing. Electronic Travel Authorization (**eTA**))* verilir. Bu səhifələrdə (*https://www.canada-ave.com/fr/visa* və *https://www.canadaonlinevisa.com/visa-exempt-countries/*) vətəndaşlarından Kanadaya daxil olmaq üçün viza və ya elektron səyahət sənədi tələb olunan ölkələrin siyahısı göstərilmişdir.

*Ölkəyə daxil olma qaydaları haqqında məlumat daha ətraflı.*

**Qeyd:** *Kanadanın Azərbaycan Respublikasında Səfirliyi mövcud deyil və Türkiyə Respublikasındakı Kanada Səfirliyi eyni zamanda, Azərbaycan, Gürcüstan və Türkmənistanda akkreditə olunmuşdur. Türkiyə Respublikasındakı Kanada Səfirliyində Azərbaycan vətəndaşlarına iş, təhsil ziyarətçi vizası və daimi yaşayanın səyahət sənədi üzrə müvafiq xidmətlər göstərilir (https://t.ly/eApsa - Kanadanın Türkiyə Respublikasındakı səfirliyi). Kanadaya viza alınması üçün məsləhət xidməti Beynəlxalq Miqrasiya Təşkilatının (BmQT) Azərbaycan Respublikasındakı nümayəndəliyi tərəfindən həyata keçirilir (https://t.ly/NyCjJ).*

*Viza alınması üçün müvafiq addımlar aşağıdakı linkdə qeyd olunmuşdur (https://t.ly/JXHXv).*

## Müvəqqəti yaşama qaydaları

### *Müvəqqəti yaşama icazəsinin verildiyi hallar:*

- ***İş icazəsi əsasında*** - Kifayət qədər dil biliyinə, təhsil səviyyəsinə, iş təcrübəsinə malik, Kanadada iş təklifi alan, qiymətləndirmə balı 100-dən ən azı 67 olan şəxslər bu yaşama icazəsi üçün müraciət edə bilər;
- ***İş adamı*** – bu hal əsasında müvəqqəti yaşama icazəsi üçün təsisçi, sərbəst peşə sahibi olan, Kanada iqtisadiyyatına investisiya qoyan əcnəbilər müraciət edə bilər. İnvestorların rəsmi olaraq 800.000 kanada dolları, təsisçilərin isə 300.000 Kanada dolları dəyərində mal sahibi olduğunu təsdiqləyən sənədlərinin olması və ən azı 3 illik tam ştatlı iş imkanları yaratması zəruridir. Sərbəst peşə sahibləri isə mədəniyyət və ya idman sahəsində iş qurmalı və Kanadaya gəlir mənbəyi təmin etməlidir;
- ***Kanadada yaşayan ailə üzvləri əsasında*** - bu əsasla müraciət edən əcnəbini Kanadada yaşayan ailə üzvü 3 ildən 10 ilə qədər himayəsinə götürməlidir;
- ***Təhsil əsasında*** - Bu yaşama icazəsi Kanadada ali təhsil alan əcnəbilərə verilir və gələcəkdə onlara iş icazəsi və vətəndaşlıq almaq hüququ verir;

- ***Qaçqın statusu əsasında*** - Öz ölkəsində yaşaya bilməyən və təqib olunan əcnəbilər hər hansı bir şəxs və ya qurumun himayəsi əsasında bu əsasla müraciət edə bilər. Müraciət edən şəxsin mənşə ölkəsini ziyarət etməsi onun yaşama icazəsi ilə bağlı müraciətinə baxılmaması üçün əsas ola bilər;

***Qeyd:*** Québec əyaləti üzrə miqrant qəbulu proqramları və yaşama icazəsi müraciətləri əyalətin öz daxili prosedurlarına əsasən qiymətləndirilir. (Daha ətraflı)

Yuxarıda qeyd edilən hallara əsasən verilən yaşama icazələri əcnəbiyə Kanadada yaşamaq, qanunlarından və sosial xidmətlərdən istifadə etmək, işləmək, təhsil almaq və s. hüquqları verən sənəddir. (Daha ətraflı)

## Daimi yaşama qaydaları

***Daimi yaşama*** *(fr. résident permanent, ing. permanent resident)* statusu əcnəbilərə İmmiqrasiya və qaçqın statusu Komissiyası tərəfindən verilir. Bu status əcnəbiyə Kanadada yaşamaq, işləmək, təhsil almaq, ölkəni tərk edib yenidən viza almadan geri dönmək hüququ, Kanada vətəndaşlığına müraciət etmək imkanı verir. Daimi yaşama icazəsi əsasən 5 il müddətinə, bəzi hallarda isə 1 il müddətinə verilir. Kanadada daimi yaşamaq üçün icazənin qüvvədə olması üçün tələb olunan əsas şərtlərdən biri son 5 il ərzində ən azı 730 gün ölkədə olma tələbidir. Bu müddət ardıcıl olmaya da bilər, lakin 5 il ərzində 730 gündən az olmamalıdır. (Daha ətraflı)

Əgər əcnəbi Kanada hüdudlarından kənardadırsa və daimi yaşama vəsiqəsinin müddəti bitmişdirsə, Kanadaya geri dönmək üçün Daimi Yaşayanın Səyahət Sənədi üçün Viza Müraciət Mərkəzinə müraciət etməlidir. (Daha ətraflı)

## Əmək fəaliyyəti ilə məşğul olma

Kanadada əmək fəaliyyəti ilə məşğul olmaq niyyətində olan şəxslər ölkəyə daxil olmaq üçün viza ilə yanaşı iş icazəsi əldə etməlidirlər. İş icazəsinin 2 növü vardır: açıq və ya sərbəst iş icazəsi *(fr. permis de travail ouvert, ing. open work permit)* və işəgötürənə özəl iş icazəsi (*fr. permis de travail lié à unemployeur donné, ing. employer–specific work permit)*. Sərbəst iş icazəsi əcnəbilərə istənilən bir iş yerində işləmək imkanı verdiyi halda, işəgötürənə özəl iş icazəsi ilə əcnəbilər yalnız müraciət zamanı göstərilən işəgötürənin yanında yalnız qeyd edilən vəzifə və ünvanda işləməlidirlər.

Bəzi kateqoriyadan olan şəxslər iş icazəsi almaqdan azaddırlar:

- Kanada vətəndaşının daimi yaşama icazəsi statusu olan həyat yoldaşı;
- Peşəkar dini xadimlər;
- Humanitar fəaliyyətlə məşğul olanlar;
- Qısa müddətli tədqiqat aparan şəxslər;
- Qısa müddət üçün işləməyə gələn yüksək səviyyəli mütəxəssislər və s. (Daha ətraflı)

İş icazəsinin müddətinin üzadılması üçün müddətin bitməsinə ən azı 30 gün qalmış müraciət edilməlidir. Kanadada iqtisadiyyatın müxtəlif sahələri üzrə iş axtarışında olan əcnəbilər İş Bankına müraciət edə bilərlər.

## Vətəndaşlığa qəbul qaydaları

***Kanadada vətəndaşlıq məsələləri*** 1985-ci ildə qəbul edilmiş "Vətəndaşlıq haqqında" Qanunla tənzimlənir. Qanunda vətəndaşlıq hüququ, vətəndaşlığın itirilməsi, reinteqrasiya, vətəndaşlığın təsdiqi, müraciətlərin baxılmasının prosedur qaydaları, qanunun tətbiqinə ədliyyə nəzarəti, vətəndaş andı və s. haqqında qanunvericiliyin tələbləri əksini tapmışdır.

*Kanada vətəndaşlığını əldə etmək* üçün aşağıdakılar *zəruridir:*

- Daimi yaşama statusuna malik olmaq;
- Son 5 ilin ən azı 3 ilini Kanadada yaşamaq ( ən az 1095 gün);
- Vergidən yayınmamaq (Vergi ödənişi bəyannamələrini təqdim etmək);
- Vətəndaşlıq imtahanından keçmək (Kanada tarixi, mədəniyyəti, cəmiyyəti və s. haqqında kifayət qədər məlumatlı olmaq);
- Kifayət qədər dil biliyinə sahib olmaq.

Kanada vətəndaşı ilə nigaha daxil olan əcnəbilərə münasibətdə də yuxarıda göstərilən eyni zəruri şərtlər tələb olunur.

Kanada vətəndaşlığını əldə etmək üçün müraciət edən şəxslər yazılı test imtahanı və müsahibədən keçməlidirlər. Test imtahanı ingilis və ya fransız dillində 20 sualdan (keçid balı: 15 doğru cavab) ibarət olur və 45 dəqiqə çəkir. Suallar ölkənin tarixi, coğrafiyası, iqtisadiyyatı, dövlət siyasəti, rəmzləri və s. haqqındadır. Müsahibədə isə şəxsin dil bacarıqları yoxlanılır. Yetkinlik yaşına çatmayan şəxslərə münasibətdə isə fərqli prosedur tətbiq olunur.

Eyni zamanda, aşağıda qeyd edilən şəxslərin vətəndaşlığa qəbul ilə bağlı müraciətlərinə münasibətdə *fərqli və ya əlavə tələblər* mövcuddur:

- 18 yaşına çatmayan şəxslər;
- Kanadadan kənarda doğulmuş və Kanada vətəndaşı tərəfindən övladlığa götürülmüş uşaqlar;
- Əvvəllər və ya hazırda Kanada Silahlı Qüvvələrində xidmət edən şəxslər;
- Əvvəllər Kanada vətəndaşı olmuş və vətəndaşlıqdan çıxmış şəxslər.

Kanada vətəndaşlığı aşağıdakı şəxslərə *birbaşa verilmir*:

- Kanada vətəndaşının əri və ya arvadına;
- Kanada vətəndaşı tərəfindən övladlığa götürülən uşağa;
- Sığınacaq hüququ əldə edən əcnəbiyə;
- Daimi yaşama icazəsi əsasında uzun illər Kanadada yaşayan şəxsə;
- 04.2019-cu il tarixə qədər Kanada vətəndaşlarının xaricdə doğulan övladlarına.

Aşağıdakı *şəxslər* Kanada vətəndaşı *hesab oluna bilər*:

- Kanadada doğulan;
- Vətəndaşlıq haqqında qanunda dəyişiklik nəticəsində vətəndaşlıq əldə edən;
- Vətəndaşlığa qəbul üçün müraciət edən və müsbət rəy əldə edən;
- Valideyn və ya himayədarları vətəndaşlıq əldə edən azyaşlılar;
- Kanadadan kənarda doğulan və ən azı 1 valideyni (qanuni və ya bioloji) Kanadada doğulmuş olan və ya daha əvvəllər Kanada vətəndaşlığı əldə edən.